UOT 379

Günay Cahangir qızı ƏSƏDOVA
Azərbaycan Dövlət İqtisad Universitetinin
doktorantı
Günay.asadova30@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2024.004.047

OTEL BİZNESİNDƏ İDARƏETMƏ UÇOTUNUN XÜSUSİYYƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - respublikanın otel biznesində idarəetmə uçotunun müasir vəziyyətini qiymətləndirmək və onun təkmilləşdirilməsi istiqamətlərini müəyyən etməkdir.

Tədqiqatın metodologiyası - sistemli yanaşma, təhlil və sintez, induksiya, deduksiya.

Tədqiqatın tətbiqi əhəmiyyəti – mehmanxana komplekslərinin rəqabət qabiliyyətinin və göstərdikləri xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə idarəetmə uçotunun təşkili praktikasında istifadə imkanları.

Tədqiqatın nəticələri – qonaqpərvərlik sənayesində, xüsusi ilə mehmanxana müəssisələrində idarəetmə uçotunun təkmilləşdirilməsi istiqamətləri qiymətləndirilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Mehmanxana komplekslərində idarəetmə uçotunun metodologiyasının və metodikasının təkmilləşdirilməsi.

Açar sözlər: otel biznesi, idarəetmə uçotu, xərclər, kalkulyasiya, maya dəyəri.

Giriş

İdarəetmə baxımından otel sferası xidmətlə əlaqəli bir çox funksiyaları həyata keçirir. Əsas məqsəd qonaqların ehtiyaclarına uyğun yaşayışın təmin olunmasıdır. Bu xidmətin göstərilməsi üçün nömrələrin sifarişi, giriş zamanı sənədlərin qeydiyyatı, ödənişin variantları, ətraflı xidmət prosedurları kimi müxtəlif xidmətlərin təminatı mövcuddur.

Bu səbəbdən istər respublika, istərsə də dünya ölkələri mütəxəssislərinin idarəetmə uçotunun mahiyyəti və məzmunu ilə bağlı müxtəlif yanaşmaları araşdırılmış, mühasibat uçotu sisteminin tərkibi kimi idarəetmə uçotunun strateji uçot, istehsalat uçotu və kontrolinqlə oxşar və fərqli yanları, həmçinin də bu sferada onun beynəlxalq prinsiplərə uyğunluğu qiymətləndirilmişdir. Bununla yanaşı, məqalədə beynəlxalq təcrübədə idarəetmə uçotunda geniş yer almış xərclərin təsnifatı, qruplaşdırılması, onların formalaşması yerləri və məsuliyyət mərkəzləri üzrə bölüşdürülməsi metodu, həmçinin də maya dəyərinin kalkulyasiyası metodlarının standart-kost və direct-kostinq sisteminin respublikanın uçot praktikasında tətbiqinin mümkünlüyü dəyərləndirilmişdir.

Son illərdə “idarəetmə uçotu” termini çox məşhurlaşmışdır. XİX-XX əsrlərdə transmilli korporasiyaların yaradılması və fəaliyyət göstərməsi, kapitalın təmərküzləşməsinin, rəqabətin, istehsalın kooperativləşməsi və kombinəşləşməsi və digər proseslərin dərinləşməsi şəraitində mühasibat uçotunun təşkilinə və aparılmasına tələblər dəyişmişdir. Məsələyə bu prizmadan yanaşaraq qeyd etmək yerinə düşər ki, uçot sahəsində mövcud çatışmazlıqlar kalkulyasiya uçotunda özünü aydın göstərirdi. Belə ki, son məhsulun bir neçə qarışıq sex, bəzən də müəssisələr tərəfindən hazırlanması, eləcə də məhsulların müxtəlif ölkələrə və regionlara satışı zamanı son məhsulun orta maya dəyəri haqqında məlumatlar məhsulun maya dəyərinin səmərəli idarə olunmasını təmin etmirdi.

İdarəetmə uçotunun mahiyyəti və iqtisadi məzmunu

Qeyd edək ki, idarəetmə uçotu anlayışı ilə əlaqədar vahid fikir yoxdur və bu sahədə iqtisadçı alimlərin yanaşmaları müxtəlifdir. Uçot sahəsində tanınmış iqtisadçılar mühasibat informasiya sistemində idarəetmə uçotunun mahiyyəti və rolu, onun məqsədi və vəzifələri haqqında müxtəlif fikirlər irəli sürürlər. Onlar idarəetmə uçotu mexanizmini idarəetmə uçotunu aparan bölmələrin quruluşunu, sənəd dövriyyəsi cədvəlinin tərtib edilməsi ilə məşğul olan maliyyə strukturunu müəyyən edən bir bölmədə birləşdirirlər. Əlbəttə, elmi araşdırmalarda idarəetmə uçotu məqsədi ilə uçot

siyasətinin texniki aspektinin elementləri detallaşdırılmır. Bunları nəzərə alaraq uçotun texnikası dedikdə uçot prosesinin həyata keçirilməsi məqsədi ilə istifadə olunan hesablama avadanlıqları, alətləri, üsul və metodları başa düşülür.

Tədqiqat göstərir ki, uçota aid müasir iqtisadi ədəbiyyatlarda təşkilatın səmərəli idarə olunmasına şərait yaradan idarəetmə uçotu elementlərinə yanaşmalar müxtəlifdir. Belə ki, bəziləri idarəetmə uçotunun üç əsas hissəsini fərqləndirir: istehsal uçotu, planlaşdırma və təhlildən ibarət olduğunu vurğulayır. [12]. Fikrimizcə, elementlərin bu siyahısı uçotun sonrakı mərhələlərdə aparılması və idarəetmə informasiyasının təmin edilməsi baxımından tam hesab oluna bilməz.

Karpov T.P. belə hesab edir ki, idarəetmə uçotu elementlərinə planlaşdırma, proqnozlaşdırma, stimullaşdırma, istehsalın idarə olunması, qiymətqoyma, texnika və texnologiya, informasiya təminatı kimi elementləri [5], digərlərinə görə büdcələşdirmə, seqmentar uçot və hesabat, idarəetmə nəzarəti və təhlil daxildir [10]. Vurğulamaq lazımdır ki, yuxarıdakı yanaşmalar təşkilatın idarə edilməsinin bütün spektrini səciyyələndirsə də, təşkilati-texniki tərəfi nəzərə almır.

Xüsusi qeyd olunmalıdır ki, uçot sisteminin elementlərinin vahidliyi səbəbindən uçotun metodikası, texnikası və təşkili üzrə sərhədləri müəyyən etmək çətindir. Bu səbəbdən uçotun təşkilati aspektinə müxtəlif məsələləri aid edilir: orta rəhbərlik baxımından məsuliyyət mərkəzlərinin formalaşdırılması, xidmətlər arasında əlaqə və qarşılıqlı münasibətlərin müəyyən edilməsi, göstəricilər sisteminin və daxili hesabat formalarının yaradılması [7], məsuliyyət mərkəzlərinin formalaşdırılması, sənəd dövriyyəsi, avtomatlaşdırma, daxili hesabat [8].

Problemin həlli baxımından kalkulyasiya uçotunun təkmilləşdirilməsi məqsədi ilə bir sıra inkişaf etmiş ölkələrdə istehsala xərclərin uçotunun və kalkulyasiya edilməsinin yeni metodlarının tətbiqinə keçdilər. Bura kalkulyasiya uçotunu istehsal uçotu sisteminin mühüm elementinə çevirən məsuliyyət mərkəzləri üzrə xərclərin uçotu, maya dəyərinin standart-kost və direkt-koctinq sistemi üzrə kalkulyasiya eddilməsini aid etmək olar. İstehsalat uçotu sisteminin gələcək inkişafı prosesində idarəetmənin uçotla yanaşı digər funksiyalarının-planlaşdırma, nəzarət, təhlil, qərarın qəbul edilməsi funksiyalarının tətbiqi istehsalat uçotu sistemini idarəetmə uçotu sisteminə çevirmişdir [14].

İdarəetmə uçotunun yarandığı və inkişafı dövründə onun mahiyyəti, məqsəd və funksiyaları ilə bağlı müxtəlif fikirlər formalaşmışdır. Uçot sahəsində xüsusi ədəbiyyatların təhlili göstərir ki, “idarəetmə uçotu” ilə bağlı vahid tərif, vahid yanaşma mövcud deyildir. Belə ki, V.B.İvaşkeviç hesab edir ki, idarəetmə uçotu maliyyə və qeyri-maliyyə informasiyalarının identifikasiyası, ölçülməsi, toplanması, təhlili, hazırlanması, interpretasiyası və təqdim olunması prosesidir ki, onların əsasında müəssisənin rəhbərliyi operativ və strateji qərarlar qəbul edir. İdarəetmə uçotu iki komponentdən ibarətdir: istehsal uçotu və maliyyə uçotunun təşkilatın maliyyə fəaliyyətinin idarə olunmasına xidmət edən hissəsi [7, s.26]. Müəllif fikrini davam etdirərək idarəetmə uçotunu kontrolinqə əks qoymadan operativ idarəetmə uçotu və kontrolinq, strateji uçotla kontrolinq arasında paralellər apararaq qeyd edir: “Strateji uçot və kontrolinq üzvi şəkildə idarəetmə uçotu sisteminə daxildir, birincisi, ona görə ki, şirkətin idarə olunması üçün nəzərdə tutulmuşdur, ikincisi, idarəetmə məqsədi ilə vahid cari, qeyri-strateji uçot üçün xərc və nəticə artımına, marjinal gəlir, fəaliyyətin seqmentləri üzrə uçot və s. istiqamətlənmiş üsul və metodlardan istifadə olunur. Bununla yanaşı, burada iqtisadi-riyazi modellərdən, proqnozlaşdırma, diskontlaşdırma metodlarından və bu qəbildən digər vasitələrdən istifadə olunur” [7, s.43].

İdarəetmə uçotunun tərifi ilə bağlı digər fikir də maraqlıdır: “İdarəetmə uçotu– uçot, planlaşdırma, nəzarət və onun fəaliyyətinin qiymətləndirilməsi təşkilati işlər, stimullaşdırma və davranışların koordinasiyası üzrə informasiya əlaqələr funksiyalarından istifadə etməklə təşkilat daxilində baş verən prosesdir” [3, s.9].

Belə ki, bəzi iqtisadçılar hesab edirlər ki, istehsalat uçotu idarəetmə uçotundan fərqlidir [3], bəzilərinə görə istehsalat uçotu idarəetmə uçotunun komponentlərindən biridir [7], bəzilərinə görə istehsalat uçotu idarəetmə uçotundan daha məhduddur [2, s.30-31]. Deyilənlərə rəğmən, belə bir fikir irəli sürmək olar ki, müəyyən ziddiyyət və çatışmazlıqlara baxmayaraq bir qrup iqtisadçı [5; 6] tərəfindən idarəetmə uçotunun mahiyyəti daha dolğun açıqlanmış, daha doğrusu, müəssisənin

bölmələrinin idarə olunması, operativ, taktiki və strateji idarəetmə qərarlarının hazırlanması üçün məlumatların toplanması, ölçülməsi, sistemləşdirilməsi və ötürülməsini təmin edən informasiya sistemi kimi səciyyələndirilmişdir [2, s.33-34; 3; 5].

Y.V.Sokolovun fikrinə görə, idarəetmə uçotu ilk növbədə əsas istehsalın analitik uçotu, xərclərin kalkulyasiyası, müəssisə agentlərinin xərclərinin qeyd olunması, ikincisi, əsasən təsərrüfat fəaliyyətinin perspektiv təhlilidir. Müstəqil elmi-praktiki istiqamət kimi idarəetmə uçotunun meydana gəlməsi səhvdir. Alimin fikrincə, termin ingilis dilindən (management accounting) düzgün tərcümə edilməmişdir. O öz fikrini belə tamamlayır: “İdarəetmə uçotu mifdir, ona həqiqət kimi inanırlar, lakin onda həqiqət yoxdur” [13].

Digər qrup alimlər, əksinə, idarəetmə uçotu ilə istehsal uçotu arasında fərqlərin mövcud olduğunu iddia edirlər. Belə ki, S.S.Satubaldin iddia edir ki, “idarəetmə uçotu məmulat növləri və məsrəflərin məsuliyyət mərkəzləri və ya mənfəət mərkəzləri üzrə xərclərin təsnifləşdirilməsi, yazılışların tərtibi, maya dəyərinin müəyyən olunması, xərclər haqqında smeta və hesabatın tərtib edilməsi, optimal idarəetmə qərarlarının seçilməsi və qəbul edilməsi məqsədi ilə rəhbərlik üçün informasiyanın hazırlanması ilə əlaqədardır [4]. Qeyd olunan fikirlərin mahiyyəti onu xarakterizə edir ki, idarəetmə uçotu hazırkı və gələcək istehsal xərclərinin uçotu və təhlilini özündə birləşdirir. İdarəetmə uçotunun belə konsepsiyası onun bir sıra mühüm funksiyalarını nəzərə almadığından onun məzmununu daraldır.

Mehmanxana müəssisələrində idarəetmə uçotunun təşkilinin müasir vəziyyətinin qiymətləndirilməsi

Müasir otellər geniş çeşiddə xidmətlər təklif edir. Əslində, otel kompleksi işgüzar turizm və istirahət sənayesi ilə sıx bağlıdır. Turizm biznesi inkişaf etmiş otellər şəbəkəsi və onlara xidmət göstərən şirkətlər olmadan praktiki olaraq mövcud ola bilməz. Bu biznesin inkişafı onun üçün müvafiq xərclərin artması ilə əlaqələndirilir ki, bu da təklif olunan xidmətlərin çeşidini artırır və xidmət keyfiyyətinin artmasına səbəb olur.

Bu gün otellər təkcə gecələmə üçün deyil, həm də camaşırxana xidmətlərindən istifadə edə biləcəyiniz, duş qəbul edə biləcəyiniz, otağınızda nahar sifariş edə biləcəyiniz və ya restorana baş çəkə biləcəyiniz yerlər kimi nəzərdə tutulub. Mehmanxanalarda göstərilən xidmətlərin müxtəlifliyi yalnız tələb olunan xidmət keyfiyyətinin monitorinqini və işçilərin işinə nəzarət etməyi deyil, həm də bütün mümkün xərclərin uçotunun aparılmasını tələb edir. Bu, ilk növbədə, otel kompleksinin sahiblərinə öz pullarına qənaət etməyə imkan verir. Avtomatlaşdırılmış uçot sistemləri bu problemi ən səmərəli şəkildə həll etməyə kömək edir. Onlar bütün mövcud otel xidmətlərinin xərcləri və gəlirləri üzərində nəzarəti vahid elektron avtomatik idarəetmə sisteminə birləşdirə bilirlər.

Normativ sənədlər sahibkarlıq fəaliyyətinin müxtəlif sahələri üçün ayrıca uçotun aparılmasını nəzərdə tutur. Bu, həm də mehmanxana sənayesinə aiddir, burada mövcud xidmətlərin hər bir fərdi növünün öz mühasibat şöbəsi olmalıdır. Buna görə də, sahibləri otellərini təşkil edərkən müəyyən edilmiş maliyyə qanunvericiliyinə riayət etməlidirlər.

Beləliklə, həmin dövrlərdə idarəetmə uçotunun mahiyyəti ilə bağlı fikirlərin sistemləşdirilməsi və ümumiləşdirilməsi əsasında onları dörd qrupa bölmək olar.

Birinci qrupa daxil olan mütəxəssislər idarəetmə uçotunu istehsal (retrospektiv və perspektiv) uçotu kimi qəbul edirlər.

İkinci qrup alimlər idarəetmə uçotunu təşkilatın idarə olunması sisteminin tərkib hissəsi hesab edir və və onların fikrincə o, mühasibat uçotu ilə yanaşı təhlil, normalaşdırma, planlaşdırma, proqnozlaşdırma və s. məsələləri də özündə birləşdirməlidir.

Üçüncü qrupa idarəetmə və mühasibat uçotunu müstəqil informasiya sistemi kimi xarakterizə edən mütəxəssisləri aid etmək olar.

Dördüncü qrup alimlər hesab edirlər ki, idarəetmə uçotu istehsal uçotunun müasir interpretasiyasıdır və onu uçotun müstəqi növü kimi fərqləndirmək düzgün deyildir.

Beləliklə, idarəetmə uçotu iqtisadi subyekt tərəfindən fəaliyyətin planlaşdırılması, nəzarət, təhlili və idarə olunması məqsədi ilə özünün və struktur bölmələrinin təsərrüfat fəaliyyəti haqqında

informasiyanın toplanması, qeyd edilməsi, ümumiləşdirilməsi və təqdim edilməsi məqsədi ilə yaratdığı sistemdir.

Təşkilatın təsərrüfat fəaliyyəti haqqında informasiyanın toplanması təsərrüfat əməliyyatlarının və digər iqtisadi əhəmiyyətli hadisələrin sonradan idarəetmə uçotu sistemində əks etdirilməsi məqsədi ilə müəyyən edilməsi, təsnifləşdirilməsi, qiymətləndirilməsi və ölçülməsidir. Məlumatların qeyd olunması təsərrüfat əməliyyatlarının və digər iqtisadi əhəmiyyətli hadisələrin qaydaya salınması və ardıcıl olaraq ilkin sənədlərdə və uçot registrlərində əks etdirilməsidir. İnformasiyanın ümumiləşdirilməsi onların təhlili, hazırlanması və interpretasiyasıdır. İnformasiyanın təhlili prosesində istifadəçilərə təqdim edilən informasiyanın tərkibinin müəyyən edilməsi, təşkilatın fəaliyyətinin müxtəlif göstəricilər arasında qarşılıqlı əlaqə, göstəricilərin iqtisadi əhəmiyyətli hadisələrdən və situasiyalardan asılılığı müəyyən edilir. İnformasiyanın hazırlanması və interpretasiyası prosesi zəruriyyət yarandıqda analitik və proqnoz nəticələri özündə əks etdirən məntiqi əlaqədə plan, uçot və digər informasiyanın təqdim edilməsini xarakterizə edir. Hazırlanmış informasiya cədvəl, qrafik və tekst formasında istifadəçilərə təqdim edilir [2; 8].

Hazırkı dövrə qədər elm aləmində strateji idarəetmə uçotuna vahid baxışlar sistemi mövcud deyildir. İdarəetmə uçotunun strateji və cari (idarəetmənin daxili tələbatı üçün) olmaqla iki növə ayrılması daha geniş yayılmış mövqe hesab olunur [4; 7, s. 42; 9; 10]. Vurğulamaq yerinə düşər ki, həmin yanaşmalarda strateji idarəetmə uçotunun həm geniş, həmçinin də, dar çərçivədə traktovkasına rast gəlinir.

Birinci halda, strateji idarəetmə uçotu strateji istiqamət (strateji menecment) kəsb edən təşkilati-informasiya sistemi kimi nəzərdən keçirilir [9; 10]. İkinci halda, strateji idarəetmə uçotu "balanslaşdırılmış göstəricilər sistemi əsasında strateji qərarların informasiya təminatıdır... məsuliyyət mərkəzləri nöqteyi-nəzərindən müəssisənin necə səmərəli işlədiyini müəyyən edən informasiyalar" kimi başa düşülməlidir [3]. Qeyd olunan tərifl ərdə strateji idarəetmə uçotunun məzmununun daraldılması həm uçot obyekti üzrə (məsuliyyət mərkəzləri), həmçinin də onun alətləri üzrə (balanslaşdırılmış göstəricilər sistemi) əlaqədardır.

Fikrimizcə, strateji idarəetmə uçotunun obyektləri və alətlərinin genişləndirilməsinə ehtiyac duyulur. Birinci halda, bura, kənar mühitin, bazarların, müştəri bazasının, biznes-proseslərin indiqatorları, ikinci məsələ üzrə fəaliyyət növləri üzrə xərclərin uçotu– activity-based kosting, ABC, iqtisadi əlavə dəyər modeli, eləcə də, dəyərlərin həlqələrinin təhlili əlavə olunmalıdır. Burada iqtisadi-riyazi modelləşdirmə öz layiqli yerini tutmalıdır. Belə bir məsələni də qeyd etmək yerinə düşər ki, uçot və təhlil arasında sıx əlaqə mövcuddur, məntiq baxımından hesab etmək olar ki, bütövlükdə idarəetmə uçotu, o cümlədən, strateji idarəetmə uçotu strateji təhlilin sələfi olmalıdır, sonuncunun məqsədi strateji alternativin axtarılması və seçilməsidir.

İdarəetmə uçotu üzrə ölkə alimlərinin nəşr olunmuş müasir ədəbiyyatlarında müəssisənin xərclərinin öyrənilməsinə, onların əsas təsnifatına, xərclərin qruplaşdırılması və xərclərin yerinə və onların formalaşması mərkəzlərinə görə bölüşdürülməsi metodlarına, müxtəlif metodların – direkt-kostinq və standart-kostinq sisteminin tətbiqi şəraitində xərclərin ölçülməsi və uçotuna aksent edilir [1; 2; 10]. Başqa sözlə, təşkilatın xərcləri haqqında informasiyaların işlənməsinin müxtəlif metodları – "ölməz uçotun" özünəməxsus idarəetmə modifikasiyası diqqət mərkəzindədir. Ədalət naminə qeyd etmək lazımdır ki, həmin ədəbiyyatlarda büdcələşdirməyə həsr edilmiş bölmə mövcuddur. Lakin həmin bölmənin son məqsədi göstəricilərin faktiki kəmiyyətinin büdcə səviyyəsindən kənarlaşmasının müəyyən edilməsi və təhlilidir ki, bu da, analitiki yenə təşkilatın tarixinə aparır.

Qeyd etmək lazımdır ki, idarəetmə uçotu üzrə elmi əsərlərdə və monoqrafiyalarda üstəlik xərclərin kalkulyasiya obyektləri arasında bölüşdürülməsi və yenidən bölüşdürülməsinin daha dəqiq metodlarının seçilməsi problemi, xərclərin uçotu və kalkulyasiyasının təşkilati-metodiki təminatı, mühasibat hesablarında idarəetmə və maliyyə mühasibatlığının əlaqə formalarının axtarılması ön plana çıxmışdır [2; 12]. Belə ki, idarəetmə uçotunda kalkulyasiya prosesinin sistemli əks etdirilməsini təmin edən məcmu hesabatların hazırlanması və onda maliyyə nəticələrinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir.

Otel biznesi respublikada sürətlə inkişaf edən sahələrdən biridir. Qonaqlarına dünya standartlarına uyğun keyfiyyətli, komfort və rahatlıq təqdim edən otel sahibləri biznes üçün də müəyyən xidmətlər (rəsmi tədbirlərin keçirilməsi üçün konfrans zalları, valyutadəyişmə məntəqələri, nəqliyyat xidmətləri və digərləri) təqdim etməlidir ki, onlar vaxta qənaət etsinlər Belə şəraitdə idarəetmə uçotu otel biznesi müəssisələrində xərclərin uçotunun və xidmətlərin kalkulyasiya edilməsinin mühüm aləti hesab olunur.

Otel biznesində idarəetmə uçotunun təşkili məsələlərində ekspertlər belə hesab edirlər ki, kalkulyasiyalaşdırma otel xidmətlərinin maya dəyərinin müəyyən edilməsi, nömrə fondunun rentabelliyi üzərində idarəetmə nəzarəti və otellərin işinin səmərəliliyinin daxili qiymətləndirilməsi üçün istifadə etməlidirlər. Onların fikrinə əsasən nömrə fondunun səviyyəsindən asılı olaraq birbaşa və dəyişən xərclərin bölüşdürülməsi nömrə fondunun maya dəyərinin kalkulyasiyasında ən mürəkkəb aspektdir [11].

Mövcud normativ-hüquqi bazanın, xüsusi ədəbiyyatların, otel biznesi müəssisələrinin fəaliyyətinin təhlili otellərdə xərclərin uçotunun təşkilinin bir sıta nəzəri və metodiki çatışmazlıqlarının müəyyən edilməsinə imkan verir. Həmin çatışmazlıqlar aşağıdakılardır:

- otel biznesi sferasında xidmətlərin göstərilməsi ilə əlaqədar vahid sistemli anlayış aparatının olmaması;
- otel biznesi müəssisələrində xərclərin uçotda sistemləşdirilməsi üçün bazanın yaradılmasına imkan verən otel xidmətlərinin əsaslandırılmış təsnifatının olmaması;
- otel xidmətlərinin xüsusiyyətləri, onların idarə olunması və xərclərin uçotu praktikası arasında əsaslandırılmış qarşılıqlı əlaqənin olmaması;
- otel üçün xərclərin uçotunun və maya dəyərinin (xərc daşıyıcılarının) vahid obyektinin olmaması;
- otel biznesi müəssisələrində istifadə olunan xərc maddələrinin təkmil olmaması;
- xidmət göstərilməsi üzrə otelin əsas və köməkçi bölmələrinin xərclərinin ayrıca aparılmaması;
- idarəetmənin informasiya təminatını formalaşdıran daxili hesabat sisteminin təkmil olmaması.

Nəticə

Müasir dövrdə otel biznesi müəssisələrində xərclərin uçotunun və idarəetmənin informasiya təminatının formalaşdırılması sisteminin təkmilləşdirilməsi məqsədi ilə aşağıdakı mühüm vəzifələrin həll edilməsi zəruridir:

- otel biznesi sferasında istifadə olunan anlayış aparatını dəqiqləşdirmək;
- otel biznesi müəssisələrində xərclərin uçotda sistemləşdirilməsi bazası kimi otel xidmətlərinin təsnifatını dəqiqləşdirmək;
- otel biznesi müəssisələrində xərclərin təsnifatını dəqiqləşdirmək;
- otel biznesi müəssisələrində xərclərin uçotu və otel xidmətlərinin maya dəyərinin hesablanması metodikasının təkmilləşdirilməsi üzrə təkliflər hazırlamaq;
- idarəetmənin informasiya təminatını formalaşdıran daxili hesabatın struktur sisteminin yaradılması üzrə təklifləri əsaslandırmaq.

Beləliklə, müasir otel biznesi müəssisələrində idarəetmə uçotunun vacibliyi ilə bağlı belə bir fikir formalaşdırmaq olar ki, rəqabət şəraitində xüsusi olaraq hazırlanmış informasiya olmadan onların peşəkar idarə edilməsi mümkün deyildir. İdarəetmə uçotu təsərrüfat subyektinin idarə olunması qarşısında duran mühüm vəzifələrin həll edilməsində, daxili istifadəçilərin məlumat və göstəricilərlə təmin olunmasında, idarəetmə prosesinin təkmilləşdirilməsi üzrə əsaslandırılmış optimal qərarların qəbul edilməsində mühüm rol oynayır.

ƏDƏBİYYAT

1. Abbasov Q.Ə. Mühasibat uçotu. Dərslik. – Bakı: İqtisad Universiteti. 2015. – 485.s.
2. Səbzəliyev S.M., Quliyev V.M. İdarəetmə uçotu. Bakı. Elm və təhsil. 2014.

3. Грибовский В.М.Бухгалтерский управленческий учет: учебное пособие /под ред.Е.И.Костюковой. – М.: КноРус. 2014. – 266 с.
4. Вахрушина М.А., Сидорова М.И., Борисова Л.И. Стратегический управленческий учет. Учебник. – М.: Национальное образование. КноРус. 2013. 2019– 672 с.
5. Карпова Т.П. Управленческий учет: Учебник для вузов. М.: Юнити-Дана. 2017. 351 с.
6. Кондраков Н.П. Бухгалтерский управленческий учет. М.: Перспектив. 2021, 512 с.
7. Ивашкевич В.Б. Бухгалтерский управленческий учет. М.: Магистр. 2019, 448 с.
8. Малиновская Н.В. Интегрированная отчетность-инновационная модель корпоративной отчетности // Международный бухгалтерский учет. 2013. №38. – с. 12-17
9. Николаева О.Е. Классический управленческий учет: учебник для вузов. – М.: Эдиториал УРСС. 2014. – 400 с.
10. Плотников В.С., Плотникова О. В. Бизнес учет и интегрированная отчетность // Международный бухгалтерский учет. 2014. №13. – с. 25-34
11. Самопальникова Ю.Н. Влияние особенностей услуг гостиниц и организации управления ими на построение бухгалтерского учета затрат. //Современные аспекты экономики. Санкт-Петербург. № 7(74). 2015. с.142-159.
12. Сергеева И.А. История становления и развития управленческого учета //Инновационная наука. 2015 №1. с.150-154
13. Соколов Я.В., Бутынец Ф.Ф., Горецкая Л.Л., Панков Д.А. Бухгалтерский учет в зарубежных странах, М.: Проспект, 2007. - 672 с.
14. Энтони А.Аткинсон, Банкер Раджив Д., Янг Марк С., Каплан Роберт С.. Управленческий учет. Пер. с англ. М.: Вильямс. 2019. 880 с.

Гюнай Джахангир кызы Асадова
докторант Азербайджанского Государственного Университета

Особенности управленческого учета в гостиничном бизнесе

Резюме

Цель исследования – оценить современное состояние управленческого учета в гостиничном бизнесе республики и определить направления его совершенствования.

Методология исследования – системный подход, экономический анализ, синтез, индукция и дедукция.

Практическая значимость исследования – возможность использования в организации управленческого учета в целях повышение конкурентоспособности и качества услуг гостиничных предприятий.

Результаты исследования – оценено направлений совершенствование управленческого учета в промышленности гостеприимства.

Оригинальность и научная новизна исследования - совершенствования методологии и методики управленческого учета в гостиных комплексах Азербайджана.

Ключевые слова: гостиничный бизнес, управленческий учет, расходы, калькуляция, себестоимость.

Gunay Jahangir Asadova
Doctoral student Azerbaijan Cooperation University

Features of management accounting in the hotel business

Summary

The purpose of the study is - assess the current state of management accounting in the hotel business of the republic and determine areas for its improvement.

The methodology of the research – systems approach, economic analysis, synthesis, induction and deduction.

The practical importance of the research –- the possibility of using management accounting in the organization in order to increase the competitiveness and quality of services of hotel enterprises.

The results of the research - areas for improving management accounting in the hospitality industry were assessed.

The originality and scientific novelty of the research - improving the methodology and techniques of management accounting in hotel complexes in Azerbaijan.

Key words: hotel business, management accounting, expenses, calculation, cost price.